

## ELDAR SƏFA

# ADSIZLAR

Çörək ağacı dar ağacından qəddar,
çörək imtahanı baş daşından ağır.
Baş daşım qoltuğumda,
əynimdə darayı libas,
yüyürürəm qiblə tutduğum tüstünə...

***

Gücüm çatmır ürəyimdən keçməyə,
Zülməti bağrımı qan eylər, eylər.
Həsrəti ən uzun gecəm, gecəmdi,
Bu bəxt açılmırsa sabahı neylər.
Yellənir sübhün pərdəsi, çəkilir
ürəyimin tüstüsü göyün üzünə;
ürəyimi zil zülmətlər bələklər,
havasına fələk oynar ələklə.
Gecənin qəm karvanını çəkirəm obaşdana,
Gecəmə şükür gəlir.
Ürəyim sökülür dan yeri kimi
Gözlərimə qəm yuxusu ələnir.
Mənim daşım ağır daşdı, bilirəm
Gecənin zülmətini,
Ayın qaranlığını,
Şal kimi çəkirəm başıma.
Baharı tez gələn alça ağacı kimi,
Büsbütün çiçəyəm həsrət gərdəyində.
Qoltuğumda baş daşım,
gücüm çatmır baş daşımı əkməyə...
Gündüzün zülməti keçilməz imiş,
kərəntisi sınıq sazmış fələyin.

# GETMƏK

Getmək, getmək, getmək,
Vətən səni çağıran yerə.
-Yanıram, bir damcı su ver!-
deyib bağıran yerə.

Vətən çağıran yerdə,
Yağılar meydan sulayır.
Yağılara yamaq olan,
Namərdlər quyruq bulayır.

# QATARLARIN FİT SƏSİ

torpaqla qaynamağım,
od ilə oynamağım,
qayğısız günlərimdən,
uşaqlıq aləmindən,
biryolluq ayrılmağım,
baş götürüb kəndimdən
bu tünlüyə qaçmağım,
mənsiz
yüyənsiz gəzən,
gədikdən leytək süzən,
köhlən kəhər yolların arxamca uçmağı,
bir cüt qoşa hörüyə həsrətimin qonması,
gözlədiyim qatarın yollarda ləngiməyi,
o qızın əllərindən bəxtimin boşqab kimi
düşüb çiliklənməyi,
elə mən çathaçatda metro qapılarının
üzümə bağlanmağı,
arzu-ümidlərimin gözünün dağlanmağı,
mənim itkin halıma o balaca kəndimdən,
qar gətirmiş buludun həzincə ağlamağı,
yurd yerinin-kəndimin ruhu tutub elə bil,
ürəyim səksəkədə, gözümün yuxusu çin,
açılmayan səhərim,
üzümə bağlı qalan günlərimdən hər səhər
qumru qiyafəsində məktub verən göyərçin-
qatarların fit səsi...
yağışı biçə-biçə, küləyi kəsə-kəsə
xəbərə təşnə qalan ürəyimə tələsən
ümid dalıycan gəlib, alça arzularımın
dərdə düşən qarmağı,
cığırları mələyən, yolları yolda yoran,
papağını da günə yandırdığım bir ömür,
bircə misrası əskik-beyt olmayan qəzəlim,
qarıyan sözüm, sazım - hörüklü bir gözəlin,
nişan üzüksüz barmağı,
o barmağın taxçada paslanıbdı oymağı...